# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Torpaq sürüşməsi təhlükəsi olan ərazilərin müəyyən edilməsi və bu ərazilərdə tikinti işlərinin aparılmasının məhdudlaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2015-ci il 5 mart tarixli 56 nömrəli və "Avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri işlərinin avtomobil yollarının bilavasitə altında və ya yolların kənarı boyunca yerləşən mövcud mühəndis-kommunikasiya təminatı sistemlərini istismar edən qurumların işləri ilə uzlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 44 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1034-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 may tarixli 42 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Torpaq sürüşməsi təhlükəsi olan ərazilərin müəyyən edilməsi və bu ərazilərdə tikinti işlərinin aparılmasının məhdudlaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 mart tarixli 56 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 324; 2019, № 6, maddə 1164) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissədə "tikinti işlərinin aparılmasına icazə verən yerli icra hakimiyyəti orqanları" sözləri "tikintiyə icazə verən orqan (qurum)" sözləri ilə və "etsinlər" sözü "etsin" sözü ilə əvəz edilsin;

1.2. 3-cü hissədə "yerli icra hakimiyyəti orqanlarına" sözləri "tikintiyə icazə verən orqana (quruma)" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 297; 2018, № 5, maddə 1110) ilə təsdiq edilmiş "Avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri işlərinin avtomobil yollarının bilavasitə altında və ya yolların kənarı boyunca yerləşən mövcud mühəndis-kommunikasiya təminatı sistemlərini istismar edən qurumların işləri ilə uzlaşdırılması Qaydası"nın 1.5-ci bəndinin üçüncü cümləsinə "orqan" sözündən sonra "(qurum)" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

**Bakı şəhəri, 7 fevral 2020-ci il**

Xalq qəzeti 2020.- 12 fevral.- S.7.